2 oktyabr 2020-ci il
№32 (8896)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# Biz zəfər çalacağıq!



"Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 27-də xalqa müraciətindən

## Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!







# Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm



## Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır!

- Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər.
- Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.
- Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.
- Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.
- Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.
- Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Mən Dağlıq Qarabağın tarixi ilə, keçmişi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə öz sözlərimi demişəm. Tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışam. Bizim məqsədyönlü və yorulmaz səylərimiz nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür var.
- Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik.
- Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 27-də keçirilən Təhlükəsizlik Şurasının iclasındakı çıxışından*



# Azərbaycan əsgəri, Azərbaycan zabiti vətəndaşlıq borcunu şərəflə yerinə yetirir

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın sentyabrın 30-da Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşündə Ali Baş Komandanın çıxışından

- Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

- Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür.

- Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır.

- Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək.

- Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bu, bizim tarixi torpağımızdır.

- Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

- Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var.

- Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun. Eyni zamanda, qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm.

- Mən sizi təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız.

- Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# Mehriban Əliyeva:

# "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"



Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında yer alıb.

Paylaşımda daha sonra deyilir: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümay ş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!".



## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 964) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci və 3.3-cü bəndlərə ismin müvafiq hallarında "pilləsi" sözündən sonra ismin müvafiq hallarında "və ya yüksək texniki peşə təhsili səviyyəsi" sözləri əlavə edilsin.

**2.** 3.2-ci bəndin ikinci cümləsinə "orta ixtisas" sözlərindən sonra "və ya peşə" sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

# Hər birinizin sevincini bölüşür, sizə daha böyük nailiyyətlər arzulayıram!

### Təhsil naziri Emin Əmrullayev tələbə adını qazanan məzunları təbrik edib



Əziz tələbə adını qazanan məzunlarımız.

Sizi bu münasibətlə ürəkdən təbrik edir, hər birinizə tələbəlik həyatında uğurlar arzulayıram.

Məlum olduğu kimi, bu tədris ili üzrə 42731 nəfər tələbə adını qazanıb. Onlardan 20799 nəfər dövlət sifarişi (49 faizə yaxın), 21932 nəfər ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. İki nəfər isə maksimum nəticə göstərib. Qəbul olunan tələbələr arasında müsabiqədənkənar tələbə adını qazananların olması bizi çox sevindirir. Belə ki, onlardan 2 nəfər beynəlxalq, 28 nəfər respublika fənn olimpiadası, 74 nəfər idman sahəsi üzrə beynəlxalq yarışların qalibi, 10 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil alanlardır.

Bir daha hər birinizin sevincini bölüşür, sizə daha böyük nailiyyətlər arzulayıram!

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 avqust tarixli 466s nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə

### Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 avqust tarixli 466s nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 avqust tarixli 466s nömrəli Sərəncamı icra və rəhbərlik üçün qəbul edilsin.
**2.** 2020/2021-ci tədris ili üçün Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələri üzrə tələbə qəbulu yerlərinin bölgüsü təsdiq edilsin (əlavə olunur).
**3.** Peşə Təhsili üzrə Dövlət Agentliyinə (P.Yusifov) tapşırılsın:
3.1. işəgötürən təşkilat və müəssisələrin tələbatına uyğun tələbə qəbulu yerlərinin bölgüsündə dəyişiklik edilməsi zərurəti yarandıqda, bu barədə təkliflərini Təhsil Nazirliyinə təqdim etsin;
3.2. tələbə qəbulu yerlərinin bölgüsünün peşə təhsili müəssisələrinə çatdırılmasını təmin etsin.
**4.** Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsi (S.Hacıyeva) bu əmrin "Azərbaycan müəllimi" qəzetində və "Peşə təhsili və insan kapitalı" jurnalında dərc edilməsini təmin etsin.
**5.** Əmrin icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*25 sentyabr 2020-ci il*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2019-cu il 13 mart tarixli KQ-06 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının qərarı

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" 2016-cı il 11 aprel tarixli 860 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1115 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 avqust tarixli 431s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 16-cı hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyası **qərara alır:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2019-cu il 13 mart tarixli KQ-06 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası"nın 1.3-cü bəndində "(yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla)" sözləri "(məktəbdaxili qiymətləndirmənin)" sözləri ilə, "qiymətləndirilməsinin (attestasiyasının)" sözləri "attestasiyasının" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Hüquq şöbəsinə (R.Hüseynov) tapşırılsın ki, bu qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsinə (S.Hacıyeva) tapşırılsın ki, bu qərarın peşə təhsili müəssisələrinə göndərilməsini, "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Qərarın icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Kollegiyanın sədri,**
**Nazir**

*16 sentyabr 2020-ci il*

## "Sabahın alimləri" X Respublika Müsabiqəsinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsi, həmçinin yüksək elmi tədqiqat nəticələri əldə etmiş Azərbaycan məktəblilərinin seçilib ABŞ-da keçirilən İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilməsini təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

**1.** 2021-ci il 10-12 fevral tarixlərində İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində "Sabahın alimləri" X Respublika Müsabiqəsi keçirilsin.

**2.** Ümumi təhsil müəssisələrinin direktorları:

2.1. 2020-ci il 12 oktyabr tarixindən etibarən şagirdlərin *www.sabahinalimleri.edu.az* internet səhifəsində onlayn rejimində qeydiyyatdan keçirilməsini təşkil etsinlər;

2.2. 2020-ci ilin 1 dekabr tarixinədək şagirdlər tərəfindən aparılan tədqiqatların başa çatdırılmasını və müsabiqənin tələblərinə uyğun olan sənədlərin hazırlanmasını təmin etsinlər;

2.3. Müsabiqənin Təlim Akademiyasında iştirak etmək istəyən müəllimlərin 2021-ci il 11 yanvar tarixinədək onlayn qeydiyyatdan keçmələrini təmin etsinlər.

**3.** Müsabiqəyə elmi dəstəyin verilməsi Bakı Dövlət Universiteti (E.Babayev), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (M.Babanlı), Sumqayıt Dövlət Universiteti (E.Hüseynov) və Azərbaycan Texniki Universitetinə (V.Vəliyev) tövsiyə edilsin.

**4.** Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində müsabiqənin təşkili ilə bağlı məsələlərin həlli Naxçıvan Muxtar Respublikasının Təhsil naziri R.Məmmədova həvalə edilsin.

**5.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Gəncə və Sumqayıt şəhərlərinin təhsil idarələrinə, şəhər (rayon) təhsil şöbələrinə müsabiqənin məqsədlərinin təbliğ edilməsi, elmi tədqiqatlara cəlb olunan şagirdlərin əhatə dairəsinin genişləndirilməsi və müsabiqəyə hazırlıqla bağlı məsələlərin həllində ümumi təhsil müəssisələrinə köməklik göstərilməsi tapşırılsın.

**6.** Aparat rəhbərinin müavini, müsabiqənin direktoru (Y.Piriyev):

6.1. Müsabiqənin həmtəşkilatçısı olan nazirlik və təşkilatçıların birgə qərarının layihəsini hazırlayıb Nazirliyin rəhbərliyinə təqdim etsin;

6.2. Müsabiqənin Münsiflər Heyətinin tərkibi haqqında təkliflər hazırlayıb Nazirliyin rəhbərliyinə təsdiq üçün təqdim etsin;

6.3. Müsabiqənin yüksək səviyyədə keçirilməsi üçün hazırlıq işlərini həyata keçirsin;

6.4. Müsabiqənin Təlim Akademiyasının təşkili və treninqlərin keçirilməsini təmin etsin;

6.5. Müsabiqənin keçirilməsi ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**7.** Təhsilin inkişafı proqramları şöbəsinə (N.Hüseynova) müsabiqədə layihələrin qiymətləndirilməsi və seçim prosesinin həyata keçirilməsinə köməklik göstərilməsi tapşırılsın.

**8.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin keçirilməsi ilə bağlı müvafiq mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**9.** Maliyyə şöbəsi (R.Orucov) və Təhsilin iqtisadiyyatı və statistika şöbəsi (E.Nəsibov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar aidiyyəti üzrə Əsaslı Tikinti və Təchizat İdarəsinin xərclər smetasında müvafiq vəsaitin proqnozlaşdırılmasını və sifariş əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsinlər.

**10.** Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (V.Xanlarov) müsabiqəyə texniki dəstəyin verilməsini (müvafiq elektron xidmətlərin göstərilməsi) təmin etsin.

**11.** Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsi (S.Hacıyeva) əmrin çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

**12.** Əmrin icrasına nəzarət nazir müavini M.Vəliyevaya həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*1 oktyabr 2020-ci il*

# Tədrisin təşkili ilə bağlı yeni normalar

## Ümumi təhsil müəssisələrində tədrisin təşkili ilə bağlı yeni normalara dair brifinq keçirilib

Sentyabrın 30-da ümumi təhsil müəssisələrində tədrisin təşkili ilə bağlı yeni normalara dair brifinq keçirilib.

Təhsil naziri Emin Əmrullayev əvvəlcə erməni vəhşiliyinin qurbanı olmuş iki məktəbli - Fidan və Şəhriyar Qurbanovların vəfatını dərin təəssüf hissi ilə bir daha qeyd edərək erməni təcavüzünün təhsilimizə vurduğu zərbədən danışıb.

Təhsil naziri ötən illərin statistikası ilə yanaşı cari ilin iyul, sentyabr aylarındakı vəziyyət barədə məlumat verib. Qeyd edilib ki, cəbhəyanı ərazilərdə yerləşən 400-dən çox ümumi təhsil müəssisəsinin həftəlik dərs cədvəllərində dəyişiklik edilib.

Cari dərs ilinin pandemiya şəraitində təşkili məsələləri barədə danışan Təhsil naziri bildirib ki, məktəblərdə görülən tədbirlər - şagird sıxlığına nəzarət, dərslərin tədrisi formalarının dəyişdirilməsi, sanitariya-gigiyena qaydalarına riayət öz nəticələrini verməkdədir. Ötən dövr ərzində həm ölkə üzrə ümumi yoluxmaların azalması, həm də məktəbdə yoluxma hallarının olmaması nikbin qərarlar qəbul etməyə əsas verib. Belə ki, "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli Qərarına uyğun olaraq, oktyabrın 1-dən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda məktəbəqədər təhsil müəssisələri fəaliyyətə başlayacaq. Məktəbəhazırlıq qruplarında sabahdan yarımqruplar şəklində tədris prosesinə start veriləcək. Həmçinin 1 oktyabr tarixindən V-IX sinif şagirdləri məktəbə həftədə 3 dəfə gəlməklə 15 saat əyani dərs ala biləcəklər.





Brifinqdə qeyd olunub ki, növbəti həftədən etibarən ibtidai sinif şagirdləri Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda həftədə 3 dəfə əyani təhsilə cəlb ediləcəklər. Bununla da onların əyani formada dərs saatları 8-dən 10 və ya 11 saata (həftəaşırı) qədər artacaq. Bu, siniflər 2 yarımqrupa bölündüyü halda hər yarımqrupa düşən əyani dərslərin sayıdır. Sinifdə sosial məsafəni qorumaq mümkündürsə, şagirdlər yarımqruplara bölünmür, bu zaman 12 və ya 13 saat əyani dərs alırlar. Ölkənin digər regionlarında yerləşən və şagird sayı 200-dən az olan məktəblər ibtidai təhsil səviyyəsində ənənəvi formada, yəni həftədə 5 dəfə olmaqla bütöv sinif komplektində oxuya bilərlər. Bu zaman məktəb rəhbərliyi sinifdə sosial məsafənin gözlənilməsini əsas meyar götürərək qərar verməlidir. Bu meyara cavab vermək mümkün olmadığı halda, həmin məktəblərdə də əyani formada dərslər həftədə 3 dəfə keçiriləcək. Hazırda ölkədə şagird sayı 200-dən az olan məktəblərin sayı 2307-dir. 15 oktyabrdan isə tam orta təhsil səviyyəsi üzrə təhsil alan şagirdlər məktəbə gələ biləcəklər.

Diqqətə çatdırılıb ki, xüsusi, internat tipli xüsusi, inteqrasiya təlimli internat tipli məktəblərdə, valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərində təhsil əyani formada davam etdirilir.

Brifinqdə teledərslərin əhəmiyyəti və onların izlənmə faizinin artırılması mühüm məsələ kimi vurğulanıb.

Həmçinin bildirilib ki, hərbi vəziyyətin tələblərindən irəli gələn internet xidmətlərindəki məhdudiyyət səbəbindən ali təhsil müəssisələrində tədris müvəqqəti dayandırılıb.

Sonda media nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.

## Vətəndaşların qəbulu noyabrın 2-dək dayandırılır

Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə müvafiq qərara uyğun olaraq, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 2020-ci il noyabrın 2-dək fəaliyyətini dayandırır.

Təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi vasitəsilə cavablandırılacaq. Vətəndaşlar həmçinin Nazirliyin rəsmi *office@edu.gov.az* elektron poçt ünvanına müraciət edə və elektron resurslarında *(www.edu.gov.az; www.ict.edu.az)* təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərlər.

Rəsmi məlumatları Təhsil Nazirliyinin internet saytı *(www.edu.gov.az)* və sosial şəbəkələrdəki səhifələrindən izləmək tövsiyə edilir.

## Xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan vətəndaşların DİQQƏTİNƏ!

Azərbaycan Respublikasında, eləcə də dünyanın bir çox ölkəsində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə ali təhsil müəssisələrində tədris prosesi müvəqqəti dayandırılıb və tələbələrin dərslərdə fiziki olaraq iştirak etmədən təhsillərini davam etdirmələrinə şərait yaradılıb.

Mövcud vəziyyətlə əlaqədar olaraq, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları"nın tətbiqi zamanı "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında" Konvensiyaya (Lissabon Konvensiyasına) üzv ölkələrin Milli Məlumat mərkəzlərindən, üzv olmayan ölkələrin isə səlahiyyətli orqanlarından və ya aidiyyəti ali təhsil müəssisəsindən əldə olunan rəsmi məlumat əsasında sözügedən məqam nəzərə alınacaq.

Eyni zamanda vətəndaşların Təhsildə Keyfiyyət Təminatı Agentliyinin internet səhifəsinin (www.tkta.edu.az) "Nostrifikasiya" və "Mütəmadi verilən suallar" bölmələri ilə tanış olmaları tövsiyə edilir.

## Təhsil naziri "Cisco" şirkətinin nümayəndələri ilə görüşüb

### Əməkdaşlığın davam etdirilməsi və yeni layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb

Sentyabrın 25-də Təhsil naziri Emin Əmrullayev "Cisco" şirkətinin nümayəndələri ilə görüşüb. "Cisco" şirkətinin Azərbaycan üzrə Qlobal İnnovasiya direktoru Ramil Eyyubov və şirkətin arazi üzrə məsul meneceri Fərid Zeynalovun iştirak etdiyi görüşdə şirkətlə əməkdaşlıq çərçivəsində Azərbaycanda təhsil sahəsində əldə olunan nailiyyətlər barədə məlumat verilib.

Qeyd olunub ki, "Cisco" şirkəti ilə yaxından əməkdaşlıq çərçivəsində şirkətin təqdim etdiyi həllər vasitəsilə təhsil müəssisələrində İP-telefoniya, videokonfrans rabitə sistemi, vahid təhsil platforması yaradılıb. Cari ildə tətbiq olunmuş "Cisco Umbrella" texnologiyası vasitəsilə Azərbaycan Təhsil Şəbəkəsinin təhlükəsizliyi və məzmununun süzgəclənməsi keyfiyyətcə gücləndirilib.

Hazırda "Cisco" şəbəkə akademiyalarının Azərbaycanda sayı 13-ə çatdırılıb. Ötən tədris ilində Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində açılmış akademiya vasitəsilə "Cisco" şirkətinin təhsil məzmunu tədris planına inteqrasiya edilib və digər peşə təhsili müəssisələrinin təhsilverənləri üçün ixtisasartırma tədbirləri təşkil olunub. Akademiyalarda İT texnologiyalarının əsasları və əməliyyat sistemləri, əşyaların interneti, proqramlaşdırma, şəbəkə texnologiyaları və təhlükəsizliyi, həmçinin kibertəhlükəsizlik istiqamətləri üzrə təlim kursları keçirilir.

Bununla yanaşı, ötən tədris ilində şirkətlə əməkdaşlıq çərçivəsində Bakı şəhəri 46 nömrəli tam orta məktəbdə "Connected School" pilot layihəsinin icrasına başlanılıb. Layihə çərçivəsində seçilmiş pilot məktəb "Cisco" avadanlıqları və proqram təminatı ilə təmin edilib, təhsil müəssisəsinin şagird, müəllim və inzibati-idarəetmə heyəti üçün təlimlər təşkil olunub, idarəetmə və tədris prosesində informasiya texnologiyalarından effektiv istifadəyə nail olmaq məqsədi ilə sistemli işlər həyata keçirilib.

Görüşdə əməkdaşlığın davam etdirilməsi və birgə yeni layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb. Müzakirə nəticəsində "Cisco" təcrübəsinin, innovativ həll və texnologiyalarının təhsil sahəsində tətbiqi üzrə işlərin aparılması nəzərdə tutulub.

## Təhsil nazirinin videoqəbulunun vaxtı dəyişdirilib

Təhsil naziri Emin Əmrullayevin Göygöl, Goranboy rayon və Naftalan şəhər sakinləri ilə 2 oktyabr 2020-ci il tarixində nəzərdə tutulmuş videoqəbulunun vaxtı dəyişdirilib.

Qeydiyyatdan keçmiş vətəndaşlara qəbulun vaxtı barədə əlavə məlumat veriləcək.

## 61-ci Beynəlxalq Riyaziyyat Olimpiadasından sevindirici xəbər




19-28 sentyabr 2020-ci il tarixlərində Sankt-Peterburqda 61-ci Beynəlxalq Riyaziyyat Olimpiadası təşkil edilib. 105 ölkə və 616 iştirakçının yarışdığı olimpiadaya məktəblilərimiz virtual formada Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzindən qoşulublar.

Azərbaycanı olimpiadada 6 şagirdimiz təmsil edib. Onlardan Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad Ağazadə bürünc medal qazanıb. Həmin liseyin IX və XI sinif şagirdləri Toğrul Abbasov və Abbas Məmmədov, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin IX sinif şagirdi Elçin Musazadə, Bakı şəhəri 220 nömrəli məktəb-liseyin X sinif şagirdi Yusif Qasımov və Şuşa rayonu Malıbəyli kənd 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Vüqar Quliyev isə həvəsləndirici sertifikata layiq görülüblər.

Qeyd edək ki, şagirdlərimiz 1993-cü ildən etibarən bu müsabiqədə iştirak edir. Builki nailiyyətlərlə birgə bu günədək sözügedən olimpiadadan ümumilikdə 8 gümüş, 37 bürünc medal əldə edilib.

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi

## 2020/2021-ci tədris ili üçün aşağıdakı mülki vakant vəzifələrə müsabiqə

## ELAN EDİR:

**1. Fundamental və təbiət fənləri kafedrası:**

*a) Ali riyaziyyat silsiləsi üzrə:*
Dosent - 2 yer
Baş müəllim - 1 yer
Müəllim - 3 yer

*b) Fizika silsiləsi üzrə:*
Baş müəllim - 2 yer
Müəllim - 1 yer

*c) Kimya silsiləsi üzrə:*
Dosent - 1 yer

**2. Texniki fənlər kafedrası:**

*a) Ümumtexniki fənlər silsiləsi üzrə:*
Baş müəllim - 2 yer
Müəllim - 2 yer

*b) Tətbiqi mexanika silsiləsi üzrə:*
Baş müəllim - 1 yer
Müəllim - 3 yer

**3. İnformatika kafedrası:**

*a) İnformatika silsiləsi üzrə:*
Müəllim - 1 yer

**4. Humanitar və Sosial fənlər kafedrası:**

*a) Psixologiya və pedaqogika fənni üzrə:*
Professor - 1 yer
Dosent - 1 yer
Baş müəllim - 1 yer

*b) Azərbaycan dili və nitq mədəniyyəti fənni üzrə:*
Dosent - 1 yer

*c) Azərbaycan tarixi fənni üzrə:*
Dosent - 1 yer
Baş müəllim - 1 yer

*d) Fəlsəfə, fəlsəfə tarixi fənni üzrə:*
Dosent - 1 yer

**5. Hərbi Hava Qüvvələri fakültəsinin Aviasiya mühəndisliyi kafedrası:**

*a) Uçuş aparatları və mühərriklər silsiləsi üzrə:*
Dosent - 1 yer

**6. NATO/sülh naminə əməkdaşlıq kafedrası:**

*a) Politologiya və beynəlxalq münasibətlər fənni üzrə:*
Dosent - 1 yer

**7. Xarici dillər kafedrası:**

*a) İngilis dili fənni üzrə:*
Dosent - 1 yer
Müəllim - 6 yer

*b) Rus dili fənni üzrə:*
Dosent - 1 yer
Baş müəllim - 4 yer
Müəllim - 9 yer

*c) Gürcü dili fənni üzrə:*
Baş müəllim - 1 yer

*d) Erməni dili fənni üzrə:*
Baş müəllim - 1 yer

**8. Hava Hücumundan Müdafiə fakültəsinin Radiotexniki qoşunlar və mühəndislik kafedrası:**

*a) Radioelektronika mühəndisliyi fənni üzrə:*
Dosent - 1 yer

**MÜSABİQƏDƏ:**

**a)** Professor vəzifəsini tutmaq üçün müsabiqədə professorlar və elmlər doktorları iştirak edə bilərlər.

**b)** Dosent vəzifəsini tutmaq üçün müsabiqədə professorlar, dosentlər, elmlər doktorları və elmlər namizədləri (fəlsəfə doktorları) iştirak edə bilərlər.

**c)** Baş müəllim vəzifəsinə elan olunmuş müsabiqədə bir qayda olaraq ən azı **3 illik** elmi-pedaqoji stajı olan elmlər namizədləri (fəlsəfə doktorları) və ya ən azı **5 illik** elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan yüksək ixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.

**d)** Müəllim vəzifəsinə müsabiqədə elmi-pedaqoji və ixtisası üzrə ən azı **1 il** iş stajı olan elmlər namizədləri (fəlsəfə doktorları), eləcə də ən azı **3 il** elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.

**e)** Müsabiqədə iştirak etmək istəyən hər bir şəxs məktəb rəisinin adına **ərizə** ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

**1.** Kadrların şəxsi qeydiyyat vərəqəsi;

**2.** Ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti (notarial qaydada təsdiq olunmuş);

**3.** Tərcümeyi-hal;

**4.** Dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq olunmuş siyahısı (müdafiəyə qədər və sonra).

*Elan dərc olunduqdan sonra sənədlər **1 (bir)** ay ərzində məktəb rəisinin ünvanına göndərilməlidir.*

**Tədris Azərbaycan dilindədir.**

**Ünvan:** Bakı-18, Naximov küçəsi,
Heydər Əliyev adına AAHM
**İndeks:** AZ 1018
**Tel.:** (012) 479-78-40

**Heydər Əliyev adına**
**Azərbaycan Ali Hərbi Məktəbi**

# Etibarsız sayılır

**Masallı rayon** Ərkivan qəsəbə 4 nömrəli (Həsənəküçə) tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş İsmayılova (Qasımova) Zeynəb İdris qızına verilmiş A-103025 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** 1 nömrəli texniki və humanitar təmayüllü məktəb-liseyin IX sinfini 1990-cı ildə bitirmiş Əzizov Sahib Ağahüseyn oğluna verilmiş AN-728749 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universitetini** 2001-ci ildə bitirmiş Parlanov Hüseyn Həsənağa oğluna 2002-ci ildə verilmiş A-086618 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2002-ci ildə Məmişov Samir Simran oğluna verilmiş A-115949 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Cəhri kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Rüstəmov Elvin Nağı oğluna verilmiş B-702314 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 4 nömrəli tam orta məktəbin IX sinfini (indiki Laçın rayon Kamallı kənd tam orta məktəb) 2001-ci ildə bitirmiş Əhmədov Sənan Sahib oğluna verilmiş B-245406 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 58 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Ömərova Minayə Xamraz qızına verilmiş C-364094 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Rzayev Çingiz Hidayət oğluna verilmiş A-066727 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Arifzadə Valeh Maarif oğluna verilmiş A-085302 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2006-cı ildə Tağıyev Hakim Nəriman oğluna verilmiş BB-II-046175 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 18 nömrəli orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Yusifova Gülşən Cavid qızına verilmiş A-480237 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 19 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Cəmilli Şəbnəm Şahin qızına verilmiş A-363827 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**43 nömrəli Şəki Texniki Peşə Məktəbi** (1 nömrəli Şəki Peşə Məktəbi) tərəfindən 1995-ci ildə Yusifova Gülşən Cavid qızına verilmiş З-0986119 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədov Emin Sahib oğluna verilmiş B-213819 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Yeyənkənd kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Qədirov Xəqani Fariz oğluna verilmiş A-411200 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 10 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Abışov Azər Tofiq oğluna verilmiş 635731 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Allahverdiyev Tural Şükür oğluna verilmiş A-194211 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 33 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Abbasquliyev Rasim Ramiz oğluna verilmiş B-551957 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu** tərəfindən 1972-ci ildə Vəliyeva Nisə Gözəl qızına verilmiş Э-210554 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 11 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Səfərova Natəvan Etibar qızına verilmiş 745435 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 11 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əhmədov Şahin Çingiz oğluna verilmiş 736441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 6 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Xəlilova Dayana Cavad qızına verilmiş E-327869 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Cəfərova Yasəmən Ələmşah qızına verilmiş A-192406 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1990-cı ildə Əhmədova Sevinc Tofiq qızına verilmiş PB-033568 nömrəli diplom və 1991-ci ildə verilmiş 570 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** şəhər 4 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Süleymanlı Rauf Hüsən oğluna verilmiş B-707114 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Tarverdiyev Arif Hüseyn oğluna verilmiş B-132680 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası** tərəfindən 1996-cı ildə Axundov Adil Əhməd oğluna verilmiş AB-I-057918 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 1 nömrəli məktəb-liseyi 1992-ci ildə bitirmiş Zeynalov Elçin Zülfü oğluna verilmiş AN-273255 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 296 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Orucov Mehman İbrahim oğluna verilmiş B-330962 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Gözeler Muhammed Fetih Yıldırıma verilmiş C-024719 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 189-190 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Məmmədov Məhəmməd Kamran oğluna verilmiş B-683439 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** texniki fənlər təmayüllü internat tipli məktəb-liseyi 2013-cü ildə bitirmiş Rəfiyev Pərviz Əli oğluna verilmiş A-213528 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 260 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Alıyev (Alızadə) İsrafil Sabir oğluna verilmiş A-416586 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Aran kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Kərimov Nail Cümşüd oğluna verilmiş A-630237 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu** (hazırda Azərbaycan Dövlət Aqrar Universiteti) tərəfindən 1979-cu ildə Əliyev Natiq Əli oğluna verilmiş 022340 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1982-ci ildə Abdullayeva Gülzar Mirəli qızına verilmiş ИB-026805 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 2 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Nəcməddinova (Abbasova) Natavan Vəzirxan qızına verilmiş 7 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin** Cəlilabad filialı tərəfindən 2019-cu ildə Əhmədova Gülnarə Nazim qızına verilmiş C-035752 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Məmmədov Həsən İsrafil oğluna verilmiş B-558772 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Mollakənd kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Rəcəbov Zəkəryə Xalid oğluna verilmiş A-044757 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Əliyeva Çiçək Məmmədrahim qızına verilmiş B-320192 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 4 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Mustafayev Vüqar Aydın oğluna verilmiş B-310545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.


**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti,
529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6739, **Sifariş** 2326

**Məsul növbətçi:** O.Mustafayev


# BMU aliminin rəhbərliyi ilə tərcümə olunan kitabın onlayn təqdimatı




Bakı Mühəndislik Universitetinin (BMU) kimya mühəndisliyi kafedrasının müdiri, dosent Yusif Abdullayevin rəhbərliyi ilə tərcümə olunan “Kimyəvi reaksiya mühəndisliyinin elementləri” (Elements of Chemical Reaction Engineering) kitabının onlayn təqdimatı baş tutub.

Qeyd edək ki, kitab BP və onun Azəri-Çıraq-Günəşli, Bakı-Tbilisi-Ceyhan, Şahdəniz və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşlarının maliyyə dəstəyi ilə tərcümə edilib. Nəşr kimya mühəndisləri üçün vacib dərslik kimi Amerika və Avropanın bir çox universitetlərində tədris edilir. Azərbaycanda kimya mühəndisliyi sahəsində belə bir kitabın tərcüməsi isə ilk dəfədir ki, həyata keçirilir.

BMU-nun rektoru, professor Havar Məmmədov “BP Azerbaijan” şirkəti və onun tərəfdaşlarının dəstəyi ilə həyata keçirilən layihəni yüksək qiymətləndirib. Rektor Amerikanın məşhur Pearson mətbəəsində Skot Foqler (Scott Fogler) müəllifliyində çapdan çıxan kitabın Azərbaycan dilinə tərcümə olunmasını yüksəkixtisaslı kadr hazırlığında önəmli rol oynayacağını, nəşrin tələbələr və gənc müəllimlər üçün faydalı olacağını vurğulayıb. O, BMU-nun “BP Azerbaijan” şirkəti ilə səmərəli əməkdaşlığın həyata keçirildiyini və bu əlaqələrin bundan sonra da davam edəcəyinə inamını ifadə edib. Məzunların işə qəbul olunmasında, istehsalat təcrübələrinin keçirilməsində də şirkət tərəfindən universitetə hərtərəfli şərait yaradıldığını bildirən rektor “BP Azerbaijan” şirkətinin Yaxın Şərq və Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyliyə, həmçinin şirkətin tərəfdaşlarına belə bir məsuliyyətli işi ərsəyə gətirdiklərinə görə minnətdarlığını bildirib.

BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda qaz sərmayələri və ünsiyyət üzrə meneceri Tamam Bayatlı şirkətin həyata keçirdiyi layihələr haqqında ümumi məlumat verib, bir sıra universitetlərlə davamlı əməkdaşlıqlarının olduğunu söyləyib.

AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov kitabın müsbət cəhətlərindən bəhs edib, bakalavr və magistr tələbələrin bu kitabdan daha çox yararlana biləcəyini söyləyib.

Təhsil Nazirliyinin Ali, orta ixtisas və əlavə təhsil sektorunun müdiri Yaşar Ömərov “BP Azerbaijan” şirkətinin təhsillə bağlı layihələrini dəstəkləməsini yüksək dəyərləndirib. Bildirib ki, “Kimyəvi reaksiya mühəndisliyinin elementləri” kitabının doğma dilimizə tərcümə edilməsi bu sahədə olan tədris prosesinin keyfiyyətinin artırılmasına, tələbələrdə əmək bazarının tələblərinə uyğun, müasir bilik və bacarıqların formalaşmasına öz töhfəsini verəcək.

Layihə rəhbəri BMU-nun dosenti Yusif Abdullayev belə bir möhtəşəm layihəyə dəstək olduqlarına görə BP və tərəfdaşlarına təşəkkür edib.

Təqdimat mərasiminin sonunda BMU-da fəaliyyət göstərən laboratoriyaların fəaliyyətinə həsr edilən videoçarx nümayiş olunub.

# Ölkə üzrə 104 min uşaq məktəbəhazırlığa cəlb ediləcək

Dövlət ümumi təhsil müəssisələrində yaradılmış məktəbəhazırlıq qruplarına elektron qeydiyyat prosesi yekunlaşıb.

2020-2021-ci tədris ilində ölkə üzrə ümumilikdə 6577 məktəbəhazırlıq qrupuna 104 min uşaq cəlb olunacaq.

Məktəbəhazırlıq qruplarına qəbul *https://mektebeqebul.edu.az/* elektron sistemi vasitəsilə həyata keçirilib. Qeyd edək ki, məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdən ibarətdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Nazirliyin Protokol sektorunun müdiri İlkin Kərimova nənəsi

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Dağıntıya məruz qalan məktəblər




## Dərslərə davamiyyətlə bağlı Təhsil Nazirliyinin Mətbuat Xidmətinin

## MƏLUMATI

İşğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təxribatları davam edir. Ordumuzun qarşısında aciz qalan düşmən mülki əhalini, o cümlədən uşaqları, qadınları və qocaları hədəf alır. Mülki əhali arasında itkilərimiz olub, çoxsaylı evlərə və mülki obyektlərə, o cümlədən cəbhə bölgəsində yerləşən təhsil müəssisələrinə ciddi ziyan dəyib. Bu, həmin ərazilərdə yerləşən təhsil müəssisələrində tədris prosesinə də öz təsirini göstərib.

Cəbhə bölgəsində yerləşən 468 məktəbdə hərbi əməliyyatlar səbəbindən həftəlik dərs cədvəllərinə dəyişiklik edilib.

Ötən gün Bakı şəhərində əyani formada dərslərə davamiyyət 85-90 faiz təşkil edib. Bölgələrdəki ümumi təhsil müəssisələrində əyani formada təhsil davam edir. Distant (məsafədən) dərslərə gəldikdə isə, ölkə üzrə internetin verilməsində məhdudiyyətlərin tətbiq edilməsi səbəbindən mümkün fasilələrin olmasını anlayışla qarşılamağınızı xahiş edirik. Şagirdlərimizin hazırkı vəziyyətdə “Mədəniyyət” və “Arb Günəş” televiziya kanalları vasitəsilə yayımlanan və bütün fənləri əhatə edən teledərsləri izləməyi tövsiyə olunur.

Bu gün də cəbhədən xoş xəbərlər eşitmək diləyi ilə müzəffər ordumuza və igid əsgərlərimizə uğurlar arzulayırıq!

## Xüsusi karantin rejimi dövründə peşə təhsili müəssisələrində tədrisin təşkili

Xüsusi karantin rejimi dövründə peşə təhsili müəssisələrində tədris prosesi 15 oktyabr tarixinədək distant formada davam etdiriləcək. Həmin tarixdən etibarən isə tədris prosesinin hibrid olaraq - əyani və distant formalarda təşkili nəzərdə tutulur.

Belə ki, oktyabrın 15-dən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yerləşən peşə təhsili müəssisələrində tədrisin əyani formada həftədə 2 dəfə, digər şəhər və rayonlarda yerləşən peşə təhsili müəssisələrində isə həftədə 3 dəfə tətbiq edilməklə uyğunlaşdırılmış tədris planları əsasında həyata keçirilməsi planlaşdırılır.

Distant tədrisin təşkili zamanı əsasən nəzəri modul və fənlərin tədrisinə üstünlük verilir. Distant dərslər virtual məktəb platforması üzərindən təşkil edilir və dərs saatının müddəti 30 dəqiqə müəyyən olunur. Sözügedən tədris prosesinin təşkili zamanı həmçinin teledərslərin izlənməsi xüsusilə təşviq edilir.

Əyani tədrisin təşkili zamanı dərslər yarımqruplar, qrupda tələbə sayı 15 nəfərdən az olduğu təqdirdə isə tam qrup şəklində aparılacaq. Riyaziyyat, Azərbaycan dili, xarici dil və çağırışaqədərki hazırlıq kimi fənlərin tədrisi əyani formada aparılacaq. Həmçinin tədris dili rus dili olan qruplarda rus dili əyani tədris ediləcək. Dərslər növbəli cədvəl əsasında təşkil olunacaq, bundan əlavə modul və fənnin nəzərdə tutulan ümumi dərs saatları saxlanılmaqla, təlim nəticələri üzrə mövzular birləşdirilərək yarımqruplarda tədris ediləcək. Ümumtəhsil fənləri üzrə əyani dərslər həftədə 3 dəfə tətbiq edildikdə həftəlik əyani tədris saatı 6, həftədə 2 dəfə tətbiq edildikdə 4, rus bölməsi üzrə isə 5 saat təşkil edir.

Bildiririk ki, əyani tədris formasında dərs saatı 30 dəqiqə müəyyən edilir. İstehsalat təlimi və modul üzrə praktiki dərslərdə 2 dərsin birləşdirilərək tədris edilməsi nəzərdə tutulur. Modullar blok formada ayrılmış cəmi dərs saatının miqdarı dəyişmədən onun tədrisinə ayrılan həftələr qısaldılaraq tədris ediləcək. Modul üzrə qiymətləndirmə bütün təlim nəticələrinin tədrisi başa çatdıqdan sonra 2 həftə ərzində aparılacaq.

## İlk dəfə olaraq qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə sertifikatlar təqdim olunub

Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə Azərbaycanda ilk mexanizmin icrasını həyata keçirib.

İlk imtahan Təhsildə Keyfiyyət Təminatı Agentliyi və tikinti materialları istehsalı üzrə beynəlxalq “Knauf Marketing Baku” şirkətinin dəstəyi ilə quru inşaat üzrə biliklərini rəsmiləşdirmək istəyən namizədlər üçün Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində keçirilib. İki gün davam edən prosesdə namizədlər özünü qiymətləndirmə, yazılı imtahan və praktiki tapşırıq mərhələsindən keçiblər.

İmtahan üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təsis və sədrlik etdiyi qiymətləndirmə komissiyası bütün prosesə nəzarət edib. Komissiyaya TKTA ilə yanaşı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və “Knauf Marketing Baku” şirkətinin nümayəndəsi, həmçinin qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə ixtisaslaşmış beynəlxalq ekspert və iki yerli mütəxəssis cəlb edilib.

Yuxarıda qeyd olunan nümayəndələrin iştirakı ilə TKTA tərəfindən təşkil edilən təltifolunma mərasimində imtahanın bütün mərhələləri üzrə yüksək nəticə göstərmiş namizədlərə rəsmi sertifikatlar təqdim edilib.

Qeyd edək ki, ölkəmizdə ömürboyu təhsilin təminatı hədəfinə nail olunması baxımından, vətəndaşların qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri kvalifikasiyaların tanınması, başqa sözlə onların malik olduğu bilik, bacarıq, səriştə və təcrübənin müvafiq ixtisas üzrə kvalifikasiya standartlarına uyğunluğunun müəyyənləşdirilməsi və yekunda aidiyyəti təhsil sənədinin verilməsi prosesi xüsusi önəm kəsb edir. Belə ki, bu proses nəticə olaraq özünütəhsil yolu ilə biliklərə yiyələnmiş (informal təhsil) və müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə təlim keçmiş (qeyri-formal təhsil) vətəndaşlarımıza təhsillərini davam etdirmək (peşə təhsili pilləsinin növbəti səviyyəsində) və ya ixtisasları üzrə əmək fəaliyyətinə başlamaq hüququnun verilməsinə xidmət edəcək.




## Erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində həlak olan məktəblilərimiz

Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində bütöv bir ailə həlak olub. Təəssüflə qeyd edirik ki, bu təcavüz nəticəsində həlak olanlardan ikisi məktəblidir. 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin şagirdləridir.

Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını kobudcasına pozur.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Ermənistanın təcavüzü nəticəsində həyatını itirmiş bütün həmvətənlərimizin, o cümlədən Naftalan şəhərində bütöv bir ailənin və şagirdlərimizin həlak olmasından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Bu gün tarix yazan və qürur mənbəyimiz olan əsgərlərimizə torpaqlarımızın işğaldan azad edilməsi yolunda uğurlar arzulayırıq!

## Məktəbdənkənar təhsil müəssisəsində hərbi vətənpərvərlik mövzusunda təlimlər



Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən hərbi vətənpərvərlik tərbiyəsi mövzusunda maarifləndirmə təlimlərinə start verilib.

Təlimlərin keçirilməsində məqsəd ölkədə elan olunan hərbi vəziyyət dövründə uşaq və gənclərin vətənpərvərlik ruhunun daha da artırılması, milli ordumuzun qüdrətinin təbliğ edilməsi, həmçinin Mərkəzin pedaqoji heyətinə ilk yardımın göstərilməsi, mülki müdafiənin dinc dövrdən hərbi vəziyyətə keçirilməsinin qaydaları və ardıcıllığının izah edilməsindən ibarətdir.

“Mülki Müdafiə”, “İlk Tibbi Yardım” istiqamətləri üzrə təlimlər Mərkəzin əməkdaşı, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Mülki Müdafiə Qərargahının rəisi, Qarabağ müharibəsi veteranı, polkovnik-leytenant Mehman Həsənov və müəssisənin peşəkar təlimçiləri tərəfindən keçirilir.

Qeyd edək ki, sözügedən təlimlərin daha geniş miqyasda davam etdirilməsi nəzərdə tutulur.